# Tovuzda əlillərə qayğı



Respublikamızda aparılan islahatlar xalqın maddi rifah halının yüksəlməsi üçün atılan addımlardır. Ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamlar nəticəsində bir sıra daimi və mövsümi iş yerləri açılmışdır. Respublikamızda irimiqyaslı layihələr həyata keçirilir. Bu da ölkədə işsizliyin minimuma endirilməsi deməkdir. Lakin əhalinin müəyyən təbəqəsi var ki, onlar bəzi səbəblər üzündən əmək qabiliyyətlərini itirmişlər. Azərbaycan hökuməti bu qəbildən olan insanlara bir sıra imtiyazlar vermiş, əlilliyin müəyyən edilməsi üçün paytaxtda və regionlarda Tibbi Sosial Ekspert komissiyaları yaradılmışdır.

Bu günlərdə mövzu ilə bağlı 12 saylı Tovuz TSEK-in müdiri Arif Səmədovla söhbət apardıq.

Arif həkim 1981-ci ildə Azərbaycan Tibb Universitetini müvəffəqiyyətlə bitirdikdən sonra təyinatla Rusiyanın Çeçen-İnquş Respublikasına göndərilmişdir. 1981-1986-cı illərdə orada müxtəlif vəzifələrdə işləmişdir.

Vətənə gəldikdən sonra o həkim-travmatoloq kimi əmək fəaliyyətini davam etdirmiş, hazırda 12 saylı Tovuz TSEK-in müdiri vəzifəsində çalışır.

Tovuz TSEK-də 500-ə yaxın əlil qeydiyyata alınmışdır. Bu xəstələr BVM, Çernobıl, Əfqanıstan, Qarabağ müharibəsi, anadangəlmə və bəzi səbəblər üzündən sonradan əlil olmuş insanlardır. Buraya müraciət edən əlillərin bir qrupu ilə söhbət apardıq. İdarənin müdiri Arif həkim və rəhbərlik etdiyi kollektiv haqqında insanlar yalnız xoş sözlər danışdılar.

Arif həkim qeyd etdi ki, bəzi xəstələrin idarəyə gəlməyi fiziki cəhətdən mümkün olmadığına görə onların yaşadığı ünvanlara üz tuturuq, elə yerindəcə onların əlillik dərəcələri müəyyən edilir.

Hazırda dövlətimizin başçısı cənab İlham Əliyevin tapşırığına əsasən bəzi xəstələr pulsuz xərəklərlə, bəziləri isə davamlı olaraq dövlət tərəfindən pulsuz minik avtomobilləri ilə təmin olunurlar. Bütün bunlar bizim verdiyimiz rəyin əsasında həyata keçirilir. Bu da bizi işimizdə daha məsuliyyətli olmağa çağırır.

Qeyd etmək lazımdır ki, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun bizə göstərdiyi qayğıkeşliyin nəticəsidir ki, 12 saylı TSEK-ə məxsus binada kollektivin normal işləməsi üçün təmir işləri yüksək səviyyədə başa çatdırılmaq üzrədir. İşimizin məsuliyyətli və çətin olmasına baxmayaraq, biz həmişə rayon tədbirlərində fəal iştirak edirik. Bayram günlərində cəbhə bölgəsində xidmət edən əsgərlərə və bəzi aztəminatlı ailələrə bayram sovqatları aparırıq.

Tovuz rayon 12 saylı TSEK-in kollektivi bundan sonra da müraciət edən əlillərə daha da qayğıkeşliklə yanaşmağı qarşısına məqsəd qoymuşdur.

**Vəli VƏLİYEV,**
**"Respublika".**